


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 221 (24.358)

*29 noyabr 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.gov.az

Qiyməti 30 qəpik


## Qarabağ Universitetinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na uyğun olaraq işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, dayanıqlı inkişafı və həmin ərazilərdə yüksək həyat səviyyəsinin təminatı üçün genişmiqyaslı bərpa-quruculuq işləri həyata keçirilir.

Əhalinin dayanıqlı məskunlaşması və ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası istiqamətində müəyyənləşdirilmiş hədəflərin reallaşdırılması nəzərdə tutulan müasir yanaşmalar, o cümlədən qabaqcıl standartların, yüksək texnologiyaların tətbiqi və hər bir rayonun ixtisaslaşma sahəsinə müvafiq inkişafı yüksəkixtisaslı kadrların cəlb edilməsini şərtləndirir.

Qarabağ regionunda ali təhsil ənənəsi tarixən mövcud olmuşdur. Burada ilk ali təhsil ocağı 1969-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun filialı kimi qurulmuş, 1973-cü ildən 1988-ci ilədək ali təhsil müəssisəsi kimi fəaliyyət göstərmiş, ərazilərimizin işğalı dövründə isə fəaliyyətini dayandırmışdır.

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri regionda yüksəkixtisaslı kadrların hazırlığını həyata keçirən ali təhsil müəssisəsinin təşkili zərurətini meydana çıxarmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması məqsədilə **qərara alıram:**

1. Xankəndi şəhərində yerləşən ali təhsil müəssisəsinin əsasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində "Qarabağ Universiteti" publik hüquqi şəxs (bundan sonra – Universitet) yaradılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. iki ay müddətində:

2.1.1. Universitetin nizamnaməsini təsdiq edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.2. Universitetin fəaliyyətinin maliyyələşdirilməsi ilə bağlı zəruri tədbirlər görsün;

2.1.3. Universitetin Xankəndi şəhərində torpaq sahəsi, tədris və yataqxana binaları, idman meydançası və digər infrastruktur obyektləri ilə təminatı məsələlərini həll etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 28 noyabr 2023-cü il*

## Naxçıvan Muxtar Respublikasının dövlət büdcəsi layihəsinin müzakirəsi keçirilib



*Noyabrın 28-də Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetində 2024-cü il dövlət büdcəsi layihəsinin müzakirəsi keçirilib.*

Naxçıvan Muxtar Respublikasının Baş naziri Səbuhi Məmmədov çıxış edərək bildirib ki, 2024-cü il üçün Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin gəlirləri 173 105 000 manat məbləğində proqnozlaşdırılır ki, bu da 2023-cü ilin təsdiq olunmuş büdcə gəlirləri ilə müqayisədə 20 883 000 manat və ya 13,7 faiz çoxdur.

2024-cü ildə Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin gəlir və xərclərini tənzimləmək üçün Azərbaycan Respublikası dövlət büdcəsindən 343 260 000 manat dotasiya ayrılması nəzərdə tutulur. Dotasiya büdcə xərclərinin 66,5 faizini təşkil etməklə 2023-cü ilin büdcəsi ilə müqayisədə 109 531 000 manat və ya 24,2 faiz az nəzərdə tutulur. 2024-cü ildə Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin xərcləri 516 365 000 manat məbləğində proqnozlaşdırılır ki, bu da 2023-cü ilin büdcəsi ilə müqayisədə 88 648 000 manat və ya 14,7 faiz azdır. İqtisadi təsnifata uyğun olaraq 2024-cü il Naxçıvan Muxtar Respublikası dövlət büdcəsində əməyin ödənişinə 328 080 074 manat və ya xərclərin 63,5 faizi həcmində, malların (işlərin və xidmətlərin) satın alınmasına 82 498 379 manat və ya xərclərin 16 faizi həcmində, subsidiyaların ödənilməsinə 32 306 544 manat və ya xərclərin 6,3 faizi həcmində, qrantlar və digər ödənişlərə 9 969 756 manat və ya xərclərin 1,9 faizi həcmində, sosial ödənişlərə 5 838 197 manat və ya xərclərin 1,1 faizi həcmində, qeyri-maliyyə aktivlərinin alınmasına 57 672 050 manat və ya xərclərin 11,2 faizi həcmində vəsait proqnozlaşdırılır.

Sonra Naxçıvan Muxtar Respublikası maliyyə nazirinin müavini-nazir vəzifələrini müvəqqəti icra edən Həsən İsmayılovun, iqtisadiyyat naziri Tapdıq Əliyevin, Dövlət Vergi Xidmətinin rəisi Abbas İsmayılovun, əmək və əhalinin sosial müdafiəsi naziri Ceyhun Cəlilovun müzakirə ətrafında çıxışları dinlənilib.

*Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidməti*

## "Dövlət satınalmaları haqqında" yeni Qanunun tətbiqi ilə bağlı seminar-təlim olub

*Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin dəstəyi, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti və Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının yeni Qanununun tətbiqinə dair dövlət satınalan təşkilatları və sahibkarlar üçün seminar-təlim keçirilib.*





Təlimin məqsədi satınalan təşkilatları və sahibkarları dövlət büdcəsi vəsaitlərindən qənaətli istifadə, şəffaflıq və intizamlılıq səviyyəsini artırmaq, yeni qanunun tətbiqinin müsbət tərəfləri haqqında maarifləndirməkdir.

Naxçıvan Biznes Mərkəzində təşkil olunan tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Tapdıq Əliyev açaraq bildirib ki, ölkəmizdə dövlət satınalmaları sahəsi iqtisadiyyatın əsas sütunlarından biridir. Bu məqsədlə satınalma qaydalarına edilən dəyişikliklər, elektron satınalma sistemi və bu kimi digər mexanizmlər şəffaflıq və hesabatlılığın daha yüksək səviyyədə olmasına hesablanıb. Bu il Naxçıvanda dövlət satınalmaları sahəsində aparılan təkmilləşdirmələr, "Dövlət satınalmalarının vahid elektron portalı"nda müsabiqələrin həyata keçirilməsi mikro, kiçik və orta sahibkarlıq subyektlərinin satınalmalarda fəal iştirakına zəmin yaradıb. Cari ilin ötən dövrü ərzində dövlət satınalmalarından istifadəyə dair ali dövlət orqanları, satınalan dövlət müəssisə və təşkilatları, podratçı hüquqi və fiziki şəxslər tərəfindən, ümumilikdə, 1201 müraciət daxil olub.

Qeyd edilib ki, satınalan təşkilatlar tərəfindən satınalmalarla bağlı təqdim olunmuş məlumatlara əsasən 2023-cü ilin ötən dövrü ərzində dövlət vəsaitləri hesabına 27 milyon 817 min 255 manat məbləğində 401 satınalma proseduru keçirilib ki, bunun 265-i kotirovka sorğusu, 125-i açıq tender, 11-i isə təkliflər sorğusunun yekununa dair protokollardır. Cari ilin ötən dövrü ərzində müsabiqə metodları ilə keçirilmiş satınalmalar zamanı satınalma predmetinin ehtimal olunan qiymətinin 4 milyon 508 min 205 manatına və ya 16,2 faizinə qənaət edilib. Qənaətin 3 milyon 883 min 564 manatı və ya 86,1 faizi açıq tender üsulu ilə, 12 min 471 manatı və ya 0,3 faizi təkliflər sorğusu üsulu ilə, 612 min 170 manatı və ya 13,6 faizi isə kotirovka sorğusu üsulu ilə keçirilən satınalmalarda əldə olunub.

Vurğulanıb ki, dövlət satınalmalarında iştirak edən tərəflərin maarifləndirilməsi və məlumatlandırılması məqsədilə 2023-cü ilin ötən dövrü ərzində Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən muxtar respublikada 250-yə yaxın dövlət müəssisə və təşkilatlarının, sahibkarlıq subyektlərinin iştirakı ilə 2 təlim keçirilib. Təlimlərdə dövlət satınalmaları sahəsində şəffaflığın artırılması, keçirilən müsabiqələrdə bərabər rəqabət mühitinin yaradılması, satınalmalar zamanı dövlət vəsaitinin qənaətlə və səmərəli istifadə edilməsi, həmçinin satınalma müqaviləsinin icrasını təmin etmək üçün satınalmaların təşkili və keçirilməsi zamanı sahibkarın müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin və etibarlığının olması kimi meyarların nəzərə alınması barədə zəruri məqamlar diqqətə çatdırılıb.

Sonra Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında AİBNDX-də Dövlət satınalmalarına nəzarət şöbəsinin müdiri Əhməd Həsənov və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında AİBNDX-nin aparat rəhbəri Tural İsmayılovun təqdimatlarında "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının yeni Qanununun tətbiqi mövzusunda təlimlər keçirilib. Təlimlər diskussiya şəklində aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

*Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında AİBNDX-də Dövlət satınalmalarına nəzarət şöbəsinin müdiri Əhməd Həsənov* təlimin əhəmiyyəti haqqında fikirlərini "Şərq qapısı" qəzeti ilə bölüşüb: – Məlum olduğu kimi, cari ilin iyul ayında "Dövlət satınalmaları haqqında" yeni Qanun qəbul edilib. 1 yanvar 2024-cü il tarixdən həmin qanunun tətbiqinə başlanılacaq. Bu məqsədlə Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında AİBNDX respublikamızın bütün satınalan təşkilatları, eyni zamanda sahibkarlar üçün yeni qanunun tətbiqi istiqamətində maarifləndirmə tədbirləri həyata keçirməkdədir. Bu gün isə Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə muxtar respublikanın dövlət satınalan təşkilatlarının aidiyyəti mütəxəssisləri üçün seminar-təlim təşkil olunub. Düşünürük ki, bu seminardan sonra satınalan təşkilatlar üçün yeni qanunun tətbiqi daha da rahat olacaq və onların bu sahədə bilik-bacarıqlarının artırılması məqsədilə bu istiqamətdə fəaliyyətimiz bundan sonra da davam edəcək.

Əhməd Həsənov onu da qeyd edib ki, "Dövlət satınalmaları haqqında" yeni Qanun sahibkarların dövlət satınalmalarına əlçatanlığını daha da artıracaq, sağlam rəqabət mühitini təmin edəcək. Bunun da nəticəsində dövlət qurumları daha şəffaf mühitdə, sağlam rəqabətdə səmərəli qiymətlərlə mal, iş xidmətlərini almış olacaqlar.

**Nail ƏSGƏROV**

2023-cü il “Heydər Əliyev İli”dir

# “Heydər Əliyevlə müsahibə”ni çap etdirdiyinə görə işdən “öz ərizəsilə” azad edilən jurnalistlə üz-üzə


Дөнүш

Һ. Ә. Әлијевлә мүсаһибә

Мүраҹиәти

## *Bu müsahibəyə görə nəinki işdən qovulmaq, jurnalistikadan getmək belə mənim üçün fəxr idi...*

Onunla indiyədək əyani tanışlığım olmamışdı. Ta ki bu günlərdə üz-üzə oturub söhbətləşməyənə qədər. Açığını desəm, doğulub boya-başa çatdığı Saatlıda, yoxsa, Bakıda yaşadığını da tam olaraq bilmirdim. Sağ olsun, “Xalq qəzeti”ndə çalışan dostlarımız Namiq Həsənova, Tahir Aydınoğluna bu haqda fikrimi deyəndə mənə çox köməkləri dəydi. Açığını desəm, müəlliflə görüşməyi çoxdan planlaşdırmışdım. Bir neçə ay bundan əvvəl Namiq Həsənovun “Xalq qəzeti”ndə Ulu Öndər Heydər Əliyevlə bağlı yazısında Fəxrəddin Ağamirzəyevin aldığı müsahibəyə bir daha toxunması məni bu fikrimdə daha qəti olmağa vadar etmişdi. Axı bu, Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıdan dahi şəxsiyyətin rəsmi dövlət qəzetində çap olunan ilk müsahibəsi idi. Zarafat deyildi, Azərbaycan hakimiyyətinin Naxçıvanı, xüsusilə Heydər Əliyevi tam informasiya blokadasına saldığı bir dönəmdə alınmış bu tarixi müsahibə ölkədə böyük əks-səda doğurmuş, əldən-ələ gəzmişdi. Həm də müsahibə çap edildikdən sonra jurnalist “öz ərizəsilə” işdən azad edilərək “bir daha əlinə qələm almamaq” şərtilə dilindən yazılı iltizam alınaraq çoxsaylı təqiblərə məruz qalmışdı. Mən isə “Heydər Əliyev İli”ndə bu tarixi müsahibənin müəllifinin xatirələrini oxucularımızla bir daha bölüşmək istədim. Beləliklə, 33 il bundan əvvəl peşəkar jurnalistikadan getməsinə səbəb olmuş həmin müsahibənin müəllifi jurnalist-hüquqşünas Fəxrəddin Ağamirzəyevlə Bakıdakı mənzilində görüşüb söhbətləşirik. Müsahibimizə ilk sualımız da həmin çətin dövrdə onu Ulu Öndərdən müsahibə almağa vadar edən səbəblər haqqında olur.

*– Fəxrəddin müəllim xoş gördük sizi. Necə olur ki, 1990-cı ildə Azərbaycan Kommunist Partiyası Saatlı Rayon Komitəsinin rəsmi mətbuat orqanı olan “Dönüş” qəzetinin gənc şöbə müdiri bütün çətinliklərə baxmayaraq, Naxçıvana, Azərbaycan hakimiyyətinin informasiya blokadasında saxladığı dahi Heydər Əliyevdən müsahibə almağa gedir?*

– Çox sağ olun. Əvvəlcə onu deyim ki, bizim ailədə Ümummilli Liderimiz Heydər Əliyevə hələ sovet dövründən böyük simpatiya olub. Atam sovet dövründə rayonda bir sıra məsul vəzifələrdə çalışıb, anam isə kitabxanaçı olub. Hər zaman ailəmizdə dahi şəxsiyyət Heydər Əliyevin söhbətləri gedib. 1990-cı ilin ortaları idi. O vaxt mən rayonda nəşr olunan “Dönüş” qəzetində zəhmətkeş məktubları və kütləvi iş şöbəsinin müdiri vəzifəsində çalışırdım. Bu vəzifə həm də rayon partiya komitəsinin nomenklaturası idi. Özüm də, eyni zamanda SSRİ Jurnalistlər İttifaqının üzvü idim. Bir gün eşitdim ki, bəs xalqımızın böyük oğlu Heydər Əliyev Moskvadan Bakıya qayıdıb. Belə bir xəbər də gəldi ki, hakimiyyət tərəfindən ona qarşı məkrli bir plan hazırlanıb...

*– Üzr istəyirəm, bəs bunu necə öyrənə bildiniz?*

– Bunu belə izah edim sizə. Jurnalist olduğuma görə rayonda bütün yaradıcı insanlarla geniş əlaqələrim var idi. Eyni zamanda bu əlaqələr Bakıya qədər uzanırdı. Bu insanlar içərisində şair və yazıçılar, nəşriyyat işçilərini xüsusi qeyd etmək istərdim. Ulu Öndərimizin Bakıya gələcəyini də rəhmətlik Əjdər Xanbabayevin bacısı mənə bildirmişdi. Bunu da öyrənmişdim ki, Bakıda hakimiyyətin əsas məqsədi Heydər Əliyevin Azərbaycana gəlişinə mane olmaq idi. Buna görə də heç vaxt itirmədim. Qardaşlarıma və bir neçə yaxınıma xəbər verdim ki, hava limanına getməli, xalqımızın igid oğlunu qorumaq üçün əlimizdən gələni etməliyik. Doğrusu, ora gedəndən sonra ciddi bir qarşıdurmanın olduğunu görmədik. Heç Heydər Əliyevi də görə bilmədik. Eşitdik ki, təyyarə enən kimi yaxın qohumları götürüb evlərinə aparıblar. Sonra öyrəndim ki, Ulu Öndər iki gün qardaşı Cəlal Əliyevin evində qalıb, sonra isə Naxçıvana yola düşüb. Bu zaman birdən ağlıma gəldi ki, Naxçıvana gedib onunla görüşməli, müsahibə almalıyam. Azərbaycanın bu çətin günlərində, yəqin ki, onun da vətəndaşlarımıza deyəcək sözü, tövsiyələri olacaq. Qəzet rəhbərliyinə deyəndə, təbii ki, ilk olaraq etirazla qarşılaşdım. Ətrafımda olan insanların çoxu bildirdi ki, Heydər Əliyev Mütəllibov hakimiyyətinin hədəfindədir, sən isə rəsmi dövlət qəzetində məsul işçisən. Bunun nə ilə nəticələnəcəyini yaxşı bilirsən. Mən isə fikrimdə qəti idim – sonunda ölüm də olsa, Naxçıvana getməli və Heydər Əliyevlə görüşməli idim. Və beləliklə, Naxçıvana getdim.



*– Bəs Ulu Öndərlə necə görüşdünüz, bu işdə sizə kim kömək etdi? İstərdim bu hissəni bir az detallı danışaq.*

– Açığı, Naxçıvana gedəndən sonra Ulu Öndərlə görüşmək üçün bir neçə gün çalışdım. Öyrəndim ki, bacısı qızı Sənifə xanımın evində yaşayır və çətinliklə də olsa, ev nömrəsini əldə edə bildim. Eyni zamanda vaxt tapıb həmin evin harada yerləşdiyini də öyrəndim. “Təbriz” mehmanxanasında qalırdım. Telefon nömrəsini öyrənəndən sonra mehmanxanada qaldığım otaqdan həmin nömrəyə zəng etdim, dəstəyi kimsə götürdü və Heydər Əliyevlə danışmaq istədiyimi bildirdim. Və... elə gözlədiyim möcüzə də bu zaman baş verdi. Bir neçə saniyə sonra dəstəyin o başından Heydər Əliyevin səsini eşidəndə bütün bədənim əsdi... Özümü təqdim edib, məqsədimi bildirdim. Ulu Öndər görüşümüz üçün vaxt müəyyənləşdirərkən telefon əlaqəsi kəsildi. Bundan sonra otağımdakı telefon da işləmədi. Bir az gözləyib dəhlizə çıxdım ki, dəhlizdəki növbətçinin otağından danışım. O isə mənə öz otağımdan danışmağı məsləhət gördü. Dedim ki, danışdığım zaman telefonun səsi kəsildi, indi də işləmir. Bundan sonra həmin xanım mənə danışmağa icazə verdi, amma özü də yanımda dayandı. Yenidən həmin nömrəni yığıb təkrar Heydər Əliyevlə danışmaq istədiyimi bildirdim. Elə bu zaman növbətçi xanım dəstəyi çəkib əlimdən aldı və hirslə aparatın üstünə qoydu...

Artıq bu işlərin heç də asan olmadığını yəqin etməyə başlamışdım. Başıma nəsə gələcəyini də gözləyirdim, amma Heydər Əliyev kimi dahi şəxsiyyətlə görüşüb müsahibə aldığımı düşünəndə sanki özümdə bir güc, toxtaqlıq tapırdım. Gördüm, artıq buradan alınmayacaq, getdim şəhərdəki “Böyük bağ”ın yanındakı avtomat telefon köşkündən nömrəni yığdım və... Heydər Əliyevlə danışaraq sabah üçün vaxt müəyyənləşdirdik.

Haşiyə: Hazırda Füzuli Rayon Məhkəməsində işləyən jurnalist-hüquqşünas Fəxrəddin Ağamirzəyevin 33 il bundan əvvəl Ümummilli Lider Heydər Əliyevdən aldığı müsahibə və müsahibədənkənar xatirələri Xalq yazıçısı Anarın tövsiyəsi və jurnalist dostlarının təkidi ilə 2012-ci ildə çapdan çıxmış “Dönüşdən Qurtuluşa” kitabında əks olunmuşdur. Redaktoru Əməkdar jurnalist Tahir Aydınoğlu olan kitabda həmin hadisələr bütün təfərrüatı ilə oxuculara çatdırılır.

*– Ertəsi gün artıq görüşə getdiniz?*

– Bəli, sabahkı gün görüşə getdim və onu ilk gördüyümdə gözlərimə inana bilmədim. İlahi, bu o nəhəng, bütün dünyanın tanıdığı, səsini hər zaman televizordan eşitdiyim insandırmı?

“Xoş gəlmisiniz cavan oğlan. Saatlıda nə var, nə yox?” – deyəndə sanki yuxudan ayıldım. Bəli, bu O idi! Qəribə hisslər keçirirdim. Xoşbəxtliyin elə bir dərəcəsini yaşayırdım ki, bunu sözlə ifadə etmək mümkün deyil. Mən, sözün əsl mənasında, uca bir zirvə ilə üz-üzə, nəfəs-nəfəsə idim...

**(ardı var)**

**Səbuhi HƏSƏNOV**
***Naxçıvan-Bakı-Naxçıvan***

*Vətənimizdə Qarabağ müharibəsi veteranlarına və şəhid ailələrinə yüksək dövlət qayğısı göstərilir. Bu siyasətin əsası isə Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulub. Ümummilli Liderimizin 1994-cü il avqust ayının 26-da imzaladığı “Azərbaycan Respublikasının erməni təcavüzündən müdafiə edərkən sağlamlığını itirmiş şəxslərin sosial müdafiəsinin yaxşılaşdırılması haqqında” Fərmanı müharibə iştirakçılarının, əlillərinin sosial müdafiəsinin gücləndirilməsinə stimul oldu.*

# Dövlət qayğısı hər bir şəhid və qazi ailəsini əhatə edir

Ulu Öndərin müəyyənləşdirdiyi siyasəti uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev tərəfindən həyata keçirilən dövlət siyasətinin mühüm prioritetlərindən biri həmin kateqoriyadan olan insanlar üçün müasir tələblərə cavab verən fərdi və çoxmənzilli yaşayış binalarının tikilməsidir. Bunun ifadəsidir ki, ötən dövr ərzində yüzlərlə Birinci Qarabağ müharibəsi qazisi və şəhid ailəsi mənzillə təmin edilib. Tarixə qızıl hərflərlə yazılan Vətən müharibəsi bitəndən sonrakı dövrdə də şəhid ailələri və qazilər mənzillə və avtomobillə təmin olunub.





O da qeyd olunmalıdır ki, Naxçıvan Muxtar Respublikasında da həmin döyüşlərdə iştirak edən və fiziki imkanlarını itirən şəxslərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, sağlamlıqlarının qorunması, onların minik avtomobilləri və texniki-bərpa vasitələri ilə təmin edilməsi, təhsil almaları, məşğulluq imkanlarının yüksəldilməsi, istedad və bacarıqlarının inkişaf etdirilməsi, habelə asudə vaxtlarının səmərəli təşkili üçün hərtərəfli şərait yaradılıb. Vətən müharibəsində şəhid olan övladlarımızın ailələri hər cür şəraitə malik olan mənzillərlə təmin edilib. Bu ayın əvvəlində muxtar respublikada yaşayan bir neçə şəhid və qazi ailəsi evlə, bəzi qazilər isə avtomobillə təmin olundu.

Qədim diyarımızın özü qədər qədim olan Culfa rayonundan olan Nəcəfovlar ailəsini qəhrəmanlar ailəsi adlandırsaq, yanılmarıq. Ailə başçısı Məhəmməd Nəcəfovla həmsöhbət olanda öyrənirik ki, onun özü və iki qardaşı 1990-cı illərdə sərhədlərimizə amansız hücumlar zamanı düşmənə sipər olublar. Onun söhbəti:

– Çətin günlər idi, düşmən hücumu gözlənilmədən olmuşdu. Hamı bir nəfər kimi sərhədlərimizi müdafiə etməyə tələsirdi. Naxçıvanı bir neçə tərəfdən atəş altına salan düşmən əlisilahlı biz isə əliyalın olsaq da qalib gəldik. Qeyrətli xalqımız və həmin illərdə Naxçıvana gələn Ulu Öndərin sayəsində düşmən geri çəkildi. Həmin illərdə üç qardaş üçümüz də döyüşürdük. Vaqiflə mən Naxçıvanda, Əli qardaşım isə Qarabağa yollanmışdı. Bədənimdə olan qəlpə yaraları 30 il idi ki, məni çox incidirdi, amma itirilən torpaqların acısı daha çox canımı ağrıdırdı. Əlinin Ağdam döyüşlərində yaralanması, oğullarımızın igidliklə şəhidliyə yüksəlməsi, var gücləri ilə döyüşmələrinə baxmayaraq, torpaqlarımızın düşmənə peşkəş verilməsi od olmuşdu ürəyimdə. Həyat yoldaşım və mən üç oğlumuzu ailəmizə layiq şəkildə böyüdər, onları bir gün Vətənin müdafiəsində layiqincə dayanmağa hazırlayırdıq. Şükür Allaha, həmin gün gəldi və üç oğlum da Vətən müharibəsində digər hərbçilər kimi düşmənə aman vermədi. Oğlum Yaqub Cənnət Şuşanı azad edənlərdən biri olub, şəhadət şərbəti içib özü də cənnətə sakin oldu. İbrahim gözünün nurunu Vətən torpağına qurban verib əmisinin tamamlaya bilmədiyi işi tamamladı. Ağdamın azad olmasında cəsarət və hünər göstərdi. İsmayıl döyüşlərdə yaralansa da, döyüşdən çəkilmədi. Yurdumuza qəhrəman kimi qayıtdılar. Yaqubun toyunu görə bilmədik, Vətən bayrağını bağrımıza basıb fəxr etdik. Dövlətimiz var olsun, Vətən sağ olsun, – dedik. Bu gün Xankəndidə, Şuşada dalğalanan bayrağı, Füzulidə, Laçında çırağı yanan evləri görəndə qürur duyuram. Həm şəhid, həm də qazi atası kimi dövlətimiz bizi hər cür qayğı ilə əhatə edib. Yaxın günlərdə Culfa şəhərində qazi oğlum İbrahimə iki, bizə isə üçotaqlı mənzil verildi. Dövlətimiz hər zaman bizim yanımızdadır. Tanrı bu dövlətə, bu xalqa igid oğullar qismət edib. Və bu o deməkdir ki, bizim biləyimiz heç vaxt bükülməyib, bükülməyəcək də.

Kəngərli rayon Qarabağlar kənd sakini Məhəmmədəli Hüseynzadə də Vətən müharibəsində igidlik göstərən oğullardandır. O, Füzuli istiqamətində döyüşlərdə iştirak edib və sağlamlığını itirib. Yaxın günlərdə avtomobillə təmin edilib.

O dedi:

– Vətən üçün canından, sağlamlığından keçən insanlara, şəhidlərin ailələrinə göstərilən qayğı bir daha onu sübut edir ki, dövlətimizin sükanı etibarlı əllərdədir. Ümummilli Liderimizin müəyyənləşdirdiyi siyasi xətt uğurla davam etdirilir. Atılan hər bir addım, dövlətimizin bu istiqamətdə həyata keçirdiyi tədbirlərin ardıcıl olduğunu, müharibə iştirakçılarına yüksək diqqət və qayğı göstərildiyini sübut edir. Bu kateqoriyadan olan insanların sosial müdafiəsinin gücləndirilməsinə, onların həyat şəraitinin əsaslı şəkildə yaxşılaşdırılmasına xidmət edir.

“Prezidentimiz öz fəaliyyətilə həmişə sübut edib ki, O, hər bir azərbaycanlının Prezidentidir. Dövlət başçımız bütün vətəndaşlara qayğı göstərir, onların problemlərinin həlli istiqamətində ardıcıl işlər görülür”, – deyən müsahibim onu da qeyd edir ki, bu gün muxtar respublikada cəmiyyətin hər bir üzvü qayğı ilə əhatə olunur. İstər yaşlı, istərsə də gənc bu qayğıdan yetərincə bəhrələnir. Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi zamanı döyüşlərdə fiziki sağlamlığını itirmiş vətəndaşlar, həmçinin hərbi xidmət vəzifəsini yerinə yetirərkən sağlamlığını itirmiş şəxslərin həyat səviyyəsinin yaxşılaşdırılması daim dövlətin diqqət mərkəzindədir.

“Çox sevindirici haldır ki, mütəmadi olaraq şəhid ailələri, müharibədə sağlamlığını itirmiş şəxslər və veteranların müavinətləri artırılır, mənzil-məişət şəraitləri yaxşılaşdırılır, pulsuz müalicə və müayinələrinin təşkili həyata keçirilir. Mən də bu qayğıdan bəhrələnirəm”, – deyən müsahibim Ordubad şəhər sakini Raqib Məmmədov Çernobılda baş verən qəzanın fəsadlarını aradan qaldıran zaman sağlamlığını itirib. Bildirdi ki, Ordubad şəhərinin mərkəzi küçəsində yeni inşa olunan binada ikiotaqlı mənzillə təmin edilib.

*Göründüyü kimi, Azərbaycanda həyata keçirilən sosial siyasət ölkənin hər bir vətəndaşını əhatə edir. Sözsüz, dövlətimizin başçısının müvafiq sərəncam və fərmanları ölkə ictimaiyyəti, o cümlədən müharibə veteranları, şəhid ailələri, müharibə əlilləri tərəfindən də yüksək qiymətləndirilir.*

**Ramiyyə ƏKBƏROVA**




# Memar ƏCƏMİ 900



*Mən ona təsadüfən günəş demədim. Memar Əcəmi yaradıcılığı dünən, bu gün, gələcəkdə də bir çox Azərbaycan və dünya memarlarının yaradıcılığı üçün ilham mənbəyidir. Müəllifi olduğu memarlıq abidələri isə zəngin kompozisiyası, istərsə də ifadə etdiyi mənaya görə dünyanın diqqətini cəlb edir.*



# Azərbaycan memarlığının parlayan günəşi Əcəmi Naxçıvani

Əcəmi ibn Əbubəkr Naxçıvani Azərbaycan mədəniyyətinin inkişaf etdiyi bir vaxtda – XII əsrdə Naxçıvanda yaşayıb. Həmin dövrdəki intibah özünü həm memarlıq, həm də ədəbiyyatda göstərirdi. XII əsr dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illik yubileyi 2021-ci ildə ölkəmizdə geniş şəkildə qeyd olundu. Bu dövrün parlayan ulduzlarından biri də memarlıq sahəsinə yenilik gətirən Əcəmi Naxçıvani idi. O Naxçıvani ki Atabəylərin hakimiyyəti dövründə Naxçıvanda yaşamış, Yaxın və Orta Şərqin dahi memarı kimi şöhrət qazanmış, “şeyx-ül-mühəndis” (mühəndislərin başçısı) ləqəbini almışdı.

Naxçıvan şəhərinin mərkəzində yüksələn Möminə xatın, Yusif Küseyir oğlu türbələri görünüşü, zəngin memarlıq elementləri ilə ziyarətçilərini heyran edir. Atabəylər Memarlıq Kompleksi abidələri sırasına daxil olan Möminə xatın türbəsində Memar Əcəminin ustalığı və müdrikliyi aydın duyulur. XII əsrdə Azərbaycanda hakimiyyətdə olan Atabəylər (Eldənizlər) dövlətinin diplomat qadınlarından sayılan Möminə xatının şərəfinə tikilən abidənin inşası Şəmsəddin Eldənizin vəfatından sonra oğlu Məhəmməd Cahan Pəhləvan tərəfindən başa çatdırılıb. 1186-cı ildə Şərqdə ilk dəfə qadının şərəfinə ucaldılan abidə anaya, qadına hörmət və ehtiramın ifadəsi kimi bu gün də Naxçıvana gələn xarici qonaqlar tərəfindən böyük maraqla qarşılanır.

Çox zərif və yüksək bədii təfəkkür məhsulu olan abidənin üzərindəki naxışlarda belə qadın ucalığını, qadın möhtəşəmliyini və zərafətini duyur və hiss edirik. Möminə xatın türbəsi təkcə Azərbaycan memarlığında deyil, ümumən, İslam memarlığında ən uca və incə kompozisiyası ilə seçilən uzunömürlü türbələrdən biri hesab edilir. Bu abidədə təkcə bədii təfəkkürün dərinliyi, zövq incəliyi deyil, eləcə də geniş riyazi biliyə və zəngin yaradıcılıq təcrübəsinə əsaslanan mühəndislik dühası nümayiş etdirilib. Abidənin baştağında kufi xətlə yazılan *“Biz gedirik, ancaq qalır ruzigar. Biz ölürük, əsər qalır yadigar”* misraları isə onu göstərir ki, mədəniyyətimizdə Möminə xatın kimi heç vaxt köhnəlməyən, öz varlığı ilə yerləşdiyi bölgəni tanıdan, şöhrətləndirən abidələr insanların yaddaşında və tarixdə həmişə qalacaq.

Ümummilli Lider Heydər Əliyev milli memarlığımızın bu möhtəşəm abidəsini 1999-cu il oktyabrın 14-də ziyarəti zamanı demişdir. ***“...Bu abidənin qiyməti yoxdur. Möminə xatın türbəsi XII əsrdə, orta əsrlərdə Azərbaycanın nə qədər zəngin mədəniyyəti olduğunu, doğrudan da, böyük memarlıq məktəbi olduğunu göstərir. Bu abidənin memarlıq qiyməti ilə bərabər, bizim üçün, bəlkə, daha da böyük qiyməti Azərbaycanın qədim dövlət olmasını göstərməsidir. Bu təkcə memarlığın zənginliyini yox, dövlətçiliyin nə qədər zəngin olduğunu, nə qədər möhkəm olduğunu da göstərir”.*** Ulu Öndərin bu səfərindən sonra onun göstərişi ilə abidə əsaslı şəkildə bərpa olunub, bu addım xalqımızın zəngin tarixinə, mədəniyyətinə, tarixi köklərinə qayıdışında, onu dərk etməsində mühüm rol oynayıb. Bu əzəmətli memarlıq abidəsi, tariximizi təsdiq edən bir abidə kimi Atabəylər dövlətinin və Azərbaycanın XII əsrdəki dövlətçilik tarixinin tədqiqinə, öyrənilməsinə geniş imkanlar açıb. Möminə xatın türbəsi Azərbaycan memarlığının ən nadir və unikal abidələrindən biri kimi UNESCO-nun maddi mədəni irs nümunələri üzrə əsas siyahısına düşməyə layiqdir.

Yusif Küseyir oğlu türbəsi Naxçıvan-Marağa memarlıq məktəbinin ən gözəl nümunələrindən biridir. Türbə yeraltı və yerüstü hissələrdən ibarət olub konstruktiv həllinin harmoniyası və gözəlliyi ilə diqqəti cəlb edir. Türbənin xarici səthinin hər biri müxtəlif şəkilli həndəsi ornamentlərlə bəzədilib. Memar taxçaların içərisini də naxış kompozisiyaları ilə yüngülləşdirib, künclərin vertikal ritmini, konstruktiv dəyərini artırıb. Bişmiş kərpiclə işlənən türbənin xarici səthlərində mürəkkəb kompozisiyalı həndəsi ornamentlərdən geniş istifadə olunsa da, kərpiclərin bir rəngli olması onun görkəminə sadəlik verib, aydın və təmiz həndəsi biçiminin bütövlüyünü gücləndirib, ifadəli kolorit verib. Quruluş etibarilə türbənin qərb tərəfə baxan səthi fərqli şəkildə həll edilib və burada türbənin giriş qapısı yerləşdirilib. Çatmatağ şəkilli bu qapının üzərindəki kitabə bildirir ki, bu türbə xaca, şanlı rəis, dinin zəkası, islamın camalı, şeyxlər başçısı Yusif Küseyir oğlunundur və abidə 1162-ci ildə tikilib. Əsas fasaddan sol tərəfdəki kitabədə isə “Bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməlidir” şəklində türbənin memarının adı qeyd olunub.

Əcəmi Naxçıvani və onun yaratdığı məktəb təkcə Naxçıvanı əhatə etməyib. Bütün Şərq aləminə onun memarlıq üslubu yayılıb, böyük əsərlər yaradılıb. Şərq memarlığı üçün bir məktəb rolunu oynayan Əcəmi yaradıcılığının təsiri ilə inşa edilən Culfadakı Gülüstan türbəsi (XIII əsr), XIV əsrdə tikilən Qarabağlar, həmçinin türk mühəndisi Memar Sinanın İstanbulda memarı olduğu türbələr bu gün də bütün dünyanı heyrətləndirir.

Bir neçə gün öncə Azərbaycanın görkəmli memarı Əcəmi Naxçıvaninin 900 illik yubileyinin 2024-2025-ci illərdə UNESCO çərçivəsində qeyd olunacaq tədbirlər siyahısına daxil edilməsi hamımızı qürurlandırdı. Bu onu göstərir ki, Azərbaycan memarlığında iz qoyan, cığır açan Əcəmi Naxçıvani irsi ölməzdir və bütün dünya onun ustalığını qəbul edir. Bu həm də ona imkan verir ki, Memar Əcəmi yaradıcılığı daha geniş tədqiq olunsun. Çünki onun irsi gəncliyimizə, gələcəyimizə nümunədir.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**



# Tariximizin müqəddəs ideallarının gələcəyə sədaqətli daşıyıcıları

*Ümummilli Lider qətiyyətlə deyirdi ki, **“Nə burada, nə də Azərbaycandan kənarda heç kəs narahat olmasın; Azərbaycan demokratiya yolu ilə gedir və gedəcəkdir”.** Demokratik, müstəqil Azərbaycan dövlətinin bərqərar olmasını xalqımızın həm iqtisadi, həm də mənəvi qələbəsi sayan Ulu Öndər ölkəmizdə dövlətçilik ənənələrinin zənginləşdirilməsində, müstəqilliyimizin daha da möhkəmləndirilməsində, onun əbədiliyinin və dönməzliyinin təmin olunmasında hər birimizin məsuliyyət daşımasını vurğulayır, Azərbaycanın müstəqillik kimi bir sərvətini xalqımız üçün böyük nailiyyət hesab edir, həyatının ən çətin anlarında, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqa arxalandığını deyirdi.*

Bu yolda Ümummilli Liderimizin böyük ehtiram göstərdiyi milli-mənəvi dəyərlərimiz ən qiymətli qaynaqlar olub. Öz dəyərini bu gün də saxlayan bu sərvətlər min illərin sınağından çıxıb.

***“Bizim milli dəyərlərimiz əsrlərboyu xalqımızın həyatında, yaşayışında formalaşıb. Milli dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz”***, – deyən Ümummilli Lider həmişə onu da vurğulayırdı ki, öz milli dəyərlərimizi unutmamalı, onu yaşatmalı, bu dəyərlərdən bəhrələnməli, ruhlanmalı, bu yolu tutmalıyıq. Gənclərə daim qayğı göstərən, onların dövlətçiliyimizə, müstəqilliyimizə məhəbbət ruhunda formalaşdırılmasını diqqətdə saxlayan, həyatı, bütün siyasi fəaliyyəti dövründə ancaq xalq üçün, insanlar üçün düşünən, xalq və insanlar üçün yaşayan, həyatının məqsədi Azərbaycan, Azərbaycan xalqı, Azərbaycan Respublikası, Azərbaycan vətəndaşı olan Ulu Öndər gənclərlə tez-tez görüşür, onlara tövsiyə edirdi ki, hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək həyat yolu kimi qəbul etməlidir.

Bu gün ölkəmizdə alternativi olmayan bu doğru yol diyarımızı inkişaf və tərəqqinin yeni müstəvisinə gətirib çıxarıb. Kiçik dövlət sayılan ailədə, uşaq bağçasında, orta məktəbdə, ali təhsil müəssisələrində bu yola sadiqlik yüksək səviyyədə formalaşdırılıb, haqq-ədalət yolunun uca zirvələr fəth etməyin ən düzgün yolu olduğu artıq sübuta yetirilib. Bu gün hər bir azərbaycanlının dövlətə və dövlətçiliyə sədaqəti doğru yolda olmasının ifadəsidir. Dövlətə və dövlətçiliyə sədaqəti isə insanların həyat səviyyəsində, yaşayışında bütün çalarları ilə görmək olar. Doğru yol insanların qurub-yaratmaq əzmini günü-gündən yüksəldir, gənclərin, yeniyetmələrin doğma torpağa, xalqa, Vətənə bağlılığını, onun taleyinə cavabdehlik hisslərini gücləndirir, ən qiymətli sərvət olan müstəqilliyimizi qorumağa, onu daha da möhkəmləndirməyə çağırır.

Dövlət müstəqilliyinin ilk illərində gənclərin enerji və potensialını milli maraqların müdafiəsinə səfərbər edən Ümummilli Lider Heydər Əliyev bununla onların vətənpərvər ruhunda formalaşmasına zəmin yaratdı. 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin Birinci Forumunda Ulu Öndər ölkə gəncləri qarşısında mühüm tarixi vəzifələr müəyyənləşdirdi.



Prezident cənab İlham Əliyev isə 2003-cü ildən başlayaraq dövlət gənclər siyasətinin inkişaf istiqamətlərini mövcud ənənələr əsasında daha da təkmilləşdirdi. Azərbaycan gəncliyi ilə bağlı Dövlət proqramları qəbul edildi, 2007-ci il “Gənclər ili” elan olundu, 2011-ci ildə Gənclər Fondu yaradıldı. 2013-cü ildə respublikada ilk dəfə “Gənclər üçün Prezident Mükafatı” təsis edildi. Azərbaycan gənclərinin İnkişaf Strategiyası təsdiqləndikdən sonra gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Vətən müharibəsində də əsas missiyanı məhz Ali Baş Komandan cənab İlham Əliyevin Prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər. Dövlət başçısının da dediyi kimi: ***“Mən çalışmışam ki, fəaliyyətim dövründə gənclərin tərbiyə olunması ilə bağlı daha çox işlər görək. Çox şadam, fəxr edirəm ki, Vətən uğrunda, torpaq uğrunda qabağa gedənlərin əksəriyyəti gənclər idi. Bu hər birimiz üçün qürur mənbəyidir. Çünki elə bir gənc nəsil yetişdi ki, hətta Qarabağı görməyən, o acı tarixi görməyən gənclər Qarabağ uğrunda, Vətən uğrunda, milli ləyaqət uğrunda ölümə gedirdilər və şəhid oldular, qazi oldular və müzəffər Ordumuzun şöhrətini yüksəklərə qaldırdılar”.***

Vətənə bağlılıq, dövlət maraqlarını hər şeydən üstün tutmaq hər bir gəncin borcudur. Qürur duyuruq ki, yetişən gənclik ölkəmizin çox böyük çətinliklərdən keçdiyini, bu çətinlikləri dəf edərkən güclü manevrələrlə qarşılaşdığını və qələbə qazandığını, bütün düşmənlərinə layiqli cavablar verdiyini, bununla bərpa etdiyimiz dövlət müstəqilliyini qoruduğunu, Azərbaycanın parçalanmaq təhlükəsindən xilas edilməsini yaxşı bilir. Yaşanılmış tarix gənclərimiz üçün ən qiymətli həyat dərsidir.

Bu gün uşaq bağçalarından tutmuş ali məktəblərimizə qədər şərəfli tariximiz ciddi şəkildə təbliğ olunur. Dövlətimiz onlara bunun üçün də hərtərəfli şərait yaradıb. Bu sırada muzeylərimizin rolunu da xüsusi qeyd etməliyik. Elə dövlət başçısının daim diqqət və qayğısı ilə əhatə olunmuş doğma muxtar respublikamızda da bunu görmək çətin deyil. Gənclərin müxtəlif sahələri əhatə edən muzeylərimizə ekskursiyaları, belə mədəniyyət müəssisələrində tariximizin dərin qatlarından soraq verən eksponatlarla tanışlıqları onların dövlətimizə, dövlətçiliyimizə, müstəqilliyimizə sədaqət ruhunda tərbiyəsində mühüm rol oynayır. Burada bir məsələni də vurğulamaq lazımdır. Bu, gənclərimizin, ilk növbədə, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində görülən işlərdir ki, onun da bəhrələri hamımızı ürəkdən sevindirir. Ona görə ki, gələcəyimiz etibar olunacaq gəncliyimiz zamanın və məkanın diktə etdiyi reallıqların fövqündədirlər. Onlar qarşılarında qoyulan vəzifələrin öhdəsindən gəlmək üçün böyük məsuliyyət daşıdıqlarını da yaxşı dərk edirlər.

*Çalışdığım “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi də öz fəaliyyətini bu istiqamətdə qurub. Məqsəd də aydındır. Cəmiyyətimizin aparıcı qüvvəsi olan gəncliyimiz adət-ənənələrimizin, milli-mənəvi dəyərlərimizin, şərəfli tariximizin müqəddəs ideallarının gələcəyə sədaqətli daşıyıcıları kimi formalaşdırılsın.*

**Jalə MİRZƏYEVA**
***“Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin bələdçisi***

*Tarixi türk elimiz Göyçə mahalı Azərbaycan aşıq sənətinin, aşıq şeirimizin görkəmli nümayəndələrini – Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Əsəd, Aşıq Qurban, Aşıq Musa, Aşıq Qasım, Aşıq Məhərrəm kimi neçə-neçə ustad saz və söz sənətkarlarını ədəbiyyatımıza bəxş edib. Aşıq şeirinin ən böyük və görkəmli nümayəndəsi Aşıq (Dədə) Ələsgər 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində anadan olub. Böyüyüb boya-başa çatdığı Göyçə aşıq mühiti, Göyçə aşıq məktəbinin tanınmış nümayəndəsi, ustadı Aşıq Alıdan uzun illər dərs alması onun böyük sənətkar kimi formalaşmasında mühüm rol oynayıb. Dodaqdəyməz, cığalı təcnis, qoşma, gəraylı, qıfılbənd, divani və sair şeir növləri ilə bənzərsiz sənət nümunələri yaradan Aşıq Ələsgər aşıq şeirinin yüksək zirvələrini fəth edərək türk şeirinə misilsiz töhfələr verib. Ələsgər məktəbi neçə-neçə sazlı-sözlü aşıqlar yetirib.*

## Göyçə sədalı, Göyçə nidalı

# Aşıq Ələsgər poeziyası



Aşıq Ələsgərin misilsiz və rəngarəng yaradıcılığını təhlil edərkən saf və təmiz məhəbbətin tərənnümü, el gözəllərinin tərifi, Vətən təbiətinin təsviri, əxlaqi-tərbiyəvi fikirlərin təbliği və dövrün ictimai eyiblərinin tənqidini görürük. Deyərdim ki, aşığın doğma eli Göyçəyə həsr etdiyi şeirləri onun yaradıcılığından qırmızı xətt ilə keçir. Aşıq belə şeirlərində Göyçənin təbiətini, toponimlərini, adət-ənənələrini, gözəl insanlarını tərənnüm edir.

Şeirlərində tez-tez göyçəli olduğunu xatırladan aşıq doğulub boya-başa çatdığı yerə olan məhəbbət və hörmətini onu tanımaq istəyən hər kəsə çatdırır:

"Pənc Ali-Əba" şeirində:

*Püşti-pənahına daldalanmışam,*
*Adım Ələsgərdi, əslim Göyçəli!*

"Mənim" qoşmasında:

*İstəsən ki, Ələsgəri görəsən,*
*Göyçə mahalıdı mahalım mənim.*

"Bizdən salam olsun Arif olana" bağlamasında:

*Bu təzə kələmdi, olsun yəqini,*
*Kəbə-qibləm, dinim – Məhəmməd dini,*
*Atam Alməmmədi, Göyçə sakini,*
*Adım Ələsgərdi, yaxşı bir, tanı!*

"Dolanır" qoşmasında isə "Adım Ələsgərdi, Göyçə-mahalım" deməklə göyçəli olduğunu bütün dünyaya bəyan edir. Bu misralarda doğulduğu Göyçə adlı ilahi yurdun, Vətən torpağının nəfəsi duyulur.

Aşığın şeirlərində Göyçənin dağları, daşları, çayları, gölləri, yaylaqları sanki dil açıb danışır, laləli, bənövşəli, kəkotulu Vətənin ətrini uzaqlardan hiss edirik:

"Dağlar" qoşmasında:

*Ağ xələt bürünər, zərnişan geyməz,*
*Heç kəsi dindirib keyfinə dəyməz.*
*Sərdara söz deməz, şaha baş əyməz,*
*Qüdrətdən səngərli, qalalı dağlar*

"Yaylaq" şeirində:

*Kəkotu, qırxbuğum, qaymaqçiçəyi,*
*Bənövşə, qantəpər, qızlar örpəyi,*
*Qoyun mələşməsi, çoban tütəyi,*
*Çəkir uzağa xəyalı, yaylaq!*

Bu şeirlərdə Göyçənin mətbəxi, sakinlərinin qonaqpərvərliyi, yaxşı xüsusiyyətləri, onların cəsarəti, igidliyi vəsf olunur:

"Danışma" qoşmasında:

*Göyçənin qonağa çoxdu hörməti;*
*Qaysava, qayğanaq verir ləzzəti,*
*Pilov, dolma, kabab, əmliyin əti...*
*İnsaf elə, tək motaldan danışma!*

"Eləyib" müxəmməsində:

*Yoxdu Göyçə mahalında*
*İsgəndər tək iyid gəzən;*
*Dost yolunda başın qoyub*
*Düşmanın canın üzən.*
*Yoxsulların əlin tutan,*
*Ac doyuran, əysik düzən.*

Aşıq Göyçənin alagözlü, sərvboylu, tuti dilli gözəlləri və qız-gəlinlərini ürəklə təsvir edir. Bu misralar aşığın yurduna olan sevgisindən, məhəbbətindən soraq verir:

"Güləndam" şeirində:

*Tavuz kimi xoş bəzənib durubsan,*
*Alagözə siyah sürmə vurubsan.*
*Sağ ol səni, yaxşı dövran qurubsan,*
*Bu dünyanın sonu puçdu, Güləndam*

"Sarı köynək" şeirində:

*Tuti dilli, sərvboylu salatın,*
*Yoxmu mərhəməti bu səltənətin?!*
*Göndər gəlsin Ələsgərin xələtin,*
*Eyləmə əməyim zay, sarı köynək!*

1905-ci ildə erməni daşnaklarının törətdiyi milli qırğın, 1918-ci ildə Göyçənin viran edilməsi, yerli əhalinin doğma yurdlarından didərgin salınması Aşıq Ələsgər yaradıcılığına təsirsiz ötüşməyib. Həmin dövrdə Kəlbəcərin Qanlıkənd (Qalaboynu) kəndində sığınacaq tapan aşıq Göyçəyə qayıdana qədər böyük mənəvi əzab-əziyyətlə üzləşib. Dədə Ələsgər Göyçədən ayrı düşdüyü vaxtlarda yazdığı şeirlərdə elə hey taleyindən şikayətlənir, Göyçə dərdi, həsrəti aşığı yaxıb yandırır:

"Dağlar" qoşmasında:

*Hanı mən gördüyüm qurğu büsatlar?!*
*Dərdməndlər görsə, tez bağrı çatlar;*
*Mələşmir sürülər, kişnəmir atlar,*
*Niyə pərişandı halların, dağlar?*

"Eyləmişəm" qoşmasında:

*Səndən ayrı şad olmuram, gülmürəm,*
*Canımdan bezmişəm, ölə bilmirəm,*
*Nə müddətdi qulluğuna gəlmirəm,*
*Bağışla təqsirim, səhf eyləmişəm!*

"Bilmirəm" qoşmasında ahıl vaxtlarını təsvir edən aşıq Göyçəyə qayıtmağı, orada ölməyi arzulayır və arzusuna da çatır:

*Ələsgərin məlul çağı.*
*Könül olub qəm dustağı,*
*Sinəmin doxsandı dağı,*
*Yetişər yüzə, bilmirəm.*

1926-cı il martın 7-də dünyasını dəyişən Aşıq Ələsgər Göyçənin Ağkilsə kənd qəbiristanlığında dəfn olunub. Qarabağda baş vermiş məlum hadisələrdən sonra ermənilər Ağkilsə kəndinin qəbiristanlığını da dağıdıb və həmin vaxt Dədə Ələsgərin qəbri və qəbirüstü abidəsi də erməni vəhşiliyinin qurbanı olub.

Aşıq Ələsgər yaradıcılığını hər zaman diqqətdə saxlayan Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə hələ sovet dövründə Aşıq Ələsgərin 150 illik yubileyi dövlət səviyyəsində təntənəli şəkildə qeyd edilib, qədim yurd yerimiz olan Göyçə mahalında Aşıq Ələsgərin abidəsi ucaldılıb. Aşıq sənətinə olan diqqət, qayğı Prezident cənab İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən davam etdirilib. Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə aşıq sənəti UNESCO-nun qeyri-maddi mədəni irs üzrə reprezentativ siyahısına daxil edilib. Ölkə başçısının "Aşıq Ələsgərin 200 illik yubileyinin qeyd edilməsi haqqında" 2021-ci il 18 fevral tarixli Sərəncamı ilə aşığın yubileyi ölkəmizdə, eləcə də muxtar respublikada təntənəli şəkildə qeyd edib, görkəmli aşığın həyat və yaradıcılığının yenidən tədqiq və təbliği üçün şərait yaranıb.

*Bu gün 44 günlük şanlı Vətən müharibəsində əldə etdiyimiz böyük Zəfər bizə o inamı da verir ki, Göyçəmizə qayıdacağımız gün elə də uzaq deyil. Həmin gün Azərbaycan aşıq sənətinə mühüm töhfələr vermiş Aşıq Ələsgərin və digər ustad aşıqlarımızın da ruhu şad olacaq. "Dünyada" qoşmasında özünün də dediyi kimi, "Özün getdin, sözün qaldı dünyada!" Aşıq Ələsgər. Göyçəyə gedən yol həm də Aşıq Ələsgər yaradıcılığından keçir. Göyçə sədalı, Göyçə nidalı, Vətənə, xalqa məhəbbətin məhsulu olan bu misralar daim yaşayacaq.*

**Güntac ŞAHMƏMMƏDLİ**

## Tahirə Məmmədlə görüş olub

*Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsinin müdiri, filologiya elmləri doktoru, professor Tahirə Məmmədlə görüş keçirilib.*





Universitetin Elm və innovasiya məsələləri üzrə prorektoru, dosent Elsevər Əsədov professor Tahirə Məmməd yaradıcılığı haqqında məlumat verərək onun araşdırdığı problemlərin aktuallığı ilə diqqəti cəlb etdiyini vurğulayıb.

Görüşdə AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru Pərvanə İsaqızı, universitetin Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Arif Ağalarov, AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru, dosent Məleykə Məmmədova, filologiya üzrə fəlsəfə doktoru, dosent Əbülfəz Əzimli çıxışlarında professor Tahirə Məmməd yaradıcılığı haqqında fikirlərini bildirərək ona gələcək fəaliyyətində uğurlar arzulayıblar.

Daha sonra professor Tahirə Məmməd universitet elmi, mədəni mühitini yüksək qiymətləndirərək, görüşün təşkilatçılarına dərin minnətdarlığını ifadə edib.

Sonda suallar cavablandırılıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Təbii qazdan istifadə edənlərin nəzərinə









Havaların soyuması ilə əlaqədar mənzillərin qızdırılmasında və digər məqsədlər üçün təbii qazdan istifadə edilməsi kifayət qədər artıb. Buna uyğun olaraq da mənzillərində təbii qazdan istifadə edən vətəndaşlar üçün aşağıdakı göstərişlərə əməl etmək və təbii qazdan təhlükəsiz istifadə qaydalarına riayət etmək xüsusi əhəmiyyət daşıyır.

Təbii qazdan istifadə edilən mənzilə daxil olarkən qaz sızmasının olmadığını təyin etməmiş açıq oddan və elektrik şəbəkəsindən istifadə etmək, işığı yandırmaq və söndürmək olmaz. Qaz cihazlarından istifadə etməzdən əvvəl mütləq otağın havasını dəyişmək, yalnız qaz iyinin olmadığına əmin olduqdan sonra cihazı yandırmaq, qaz cihazlarından istifadə edərkən əvvəl kibriti və ya alışqanı yandırıb sonra qaz kranını açmaq, qaz cihazlarını nəzarətsiz qoymamaq, mənzildə olan tüstü bacalarının ildə bir dəfə qış mövsümündən əvvəl təmizlənməsini təmin etmək vacibdir.

Qazdan istifadə edərkən qaz cihazları üzərində paltar və ya digər alışa bilən əşyaların qurudulması, qaz cihazları olan otaqlarda tezalışan mal və materialların yerləşdirilməsi və saxlanılması qadağandır.

Qaz sobası olan mətbəxdə nəfəslik daim açıq olmalı və mətbəxin havasını dəyişən ventilyasiya sistemi işlək vəziyyətdə olmalıdır. Mətbəxdə istifadə olunan cihazda təbii qaz mavi rəngdə yanırsa, qaz-hava qarışığı normaldır. Qazdan istifadə zamanı qaz cihazlarının odluqlarında qazın normal yanmasına xüsusi fikir verilməlidir.

Vanna otaqlarında qazla işləyən suqızdırıcı dövlət standartlarına uyğun olmalıdır. Vanna otağının qapısı xaricə açılmalıdır. Qapının aşağısında təmiz havanın daxil olması üçün boşluqlar olmalıdır. Vanna otağında dəm qazını aşkar edən detektor quraşdırılmalıdır. İstifadəçilər tərəfindən cihazlara daim baxış keçirilməlidir. Əgər üzərində və yan tərəflərində qaralma, yanma izləri varsa, həmin cihazın istifadəsi dərhal dayandırılmalı və yenisi ilə əvəz edilməlidir.

Dəm qazı rəngsiz, iysiz qazdır. Bilmək lazımdır ki, dəm qazının əmələ gəlməsinin qarşısını almaq üçün yanma məhsulları olan otaqlarda tez-tez havanın dəyişdirilməsi, qızdırıcıların hava sovurucu borularının yaxşı işləməsinə nəzarət etmək lazımdır. Qapalı mühitdə qaz yandırılarkən mütləq nəfəsliklər açıq olmalıdır. Dəm qazı ilə yüngül zəhərlənmə zamanı insanda başgicəllənmə, başağrısı, quru öskürək, ürəkbulanma, qusma kimi əlamətlər meydana çıxır. Daha ağır zəhərlənmə isə qıcolmalar, huşun uzun müddət itirilməsi, beyin ödemi, ürəyin zədələnməsi baş verir.

Zəhərlənmə zamanı həyəcanlanmadan ilkin tədbirlər görmək lazımdır. İlk olaraq zərərçəkəni dərhal açıq havaya çıxartmaq, əynindəki paltarın yaxasını, kəmərini açmaq, onu yarıoturaq vəziyyətə gətirmək lazımdır. Bundan başqa, zərərçəkənin alnına, sinəsinə soyuq kompres qoymaq, əgər zərərçəkən nəfəs almırsa və ürəyi dayanmışsa, ürəyin xarici masajı və süni tənəffüs verilməyə başlanılmalıdır. Əgər insan huşunu itirməyibsə, qızdırıcı içki, çay vermək lazımdır. Huşu özündə deyilsə, başını sağa-sola çevirib, ağız boşluğundakı seliyi təmizləmək lazımdır. İlkin olaraq şirin çaya limon qatıb vermək olar. Dəm qazı ilə zəhərlənmənin ilk əlamətləri meydana çıxan kimi dərhal təcili yardım çağırmaq lazımdır. Zərərçəkəni arxası üstə uzanmış halda qoymaq, ona su vermək, başının altına nə isə qoymaq lazım deyil.

*Unutmayın ki, qazdan istifadə qaydalarına riayət etməklə siz özünüzün və ətrafdakıların həyatını təbii qazla baş verə biləcək arzuolunmaz bədbəxt hadisələrdən qorumuş olarsınız!*

***Azərbaycan Respublikası Baş Prokurorluğu***
***SOCAR "Azəriqaz" İstehsalat Birliyi***

## Hərbi qulluqçular arasında voleybol birinciliyi keçirilib

*Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları arasında voleybol birinciliyi keçirilib.*



Naxçıvan Olimpiya İdman Kompleksində keçirilən voleybol birinciliyi başlamazdan əvvəl çıxış edən Əlahiddə Ümumqoşun Ordunun zabiti Vahid Məmmədov hərbi qulluqçular arasında idmanın kütləviliyinə nail olunması, güclü idmançı və komandaların müəyyənləşdirilməsi məqsədilə təşkil olunan idman yarışlarının əhəmiyyətindən danışıb.

Qeyd edək ki, "Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır!" devizi ilə təşkil olunan birincilikdə 13 komandadan 130 idmançı mübarizə aparıb. Olimpiya sistemi üzrə keçirilən yarışları Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının hakimləri idarə ediblər. Altı gün gərgin mübarizə şəraitində davam edən yarışların yekun nəticələrinə əsasən birinci və üçüncü yerdə motoatıcılar, ikinci yerdə isə xüsusi təyinatlılar qərarlaşıb.

Sonda qalib komandalar mükafatlandırılıb.

**Kənan CƏLİLOV**

### *İtmişdir*

Babək rayonunun Didivar kənd sakini Rzayev Səxavət Yaqub oğlunun adına olan A-007859 nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Culfa rayonunun Əbrəqunus kəndində yaşamış Əliyeva Güllü Fərhad qızına məxsus JN-172A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor müavini: MƏMMƏD BABAYEV
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Bülbül Quliyeva
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 686